**Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə iyun ayının 16-da ölkəmiz "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumuna evsahibliyini layiqincə həyata keçirdi. Forumun ölkəmizdə keçirilməsi, eyni zamanda burada dünyanın 50-dən çox ölkəsini təmsil edən nümayəndələrin iştirakı bir daha Azərbaycanın artmaqda olan beynəlxalq nüfuzundan, regionda və Cənubi Qafqazda olan xüsusi çəkisindən xəbər verir. Bu bir həqiqətdir ki, hazırda Azərbaycan beynəlxalq münasibətlər sisteminin fəal aktorudur və öz milli maraqlarına əsaslanaraq dünyanın siyasi arenasına uğurla inteqrasiya etməkdədir.**

# Ölkəmizin uğurlu təşəbbüsü: Qlobal Bakı Forumu




## *Bu mötəbər platformada aparılan müzakirələr beynəlxalq münasibətlər üçün mühüm əhəmiyyət kəsb edir*

Bu isə ondan xəbər verir ki, Azərbaycan hər zaman olduğu kimi, yenə də qlobal xarakterli mövzuların, məsələlərin müzakirəsini təşkil edir, bu istiqamətdə yetərincə ciddi fəallıq göstərir, öz evsahibliyi, təşkilatçılığı, təşəbbüskarlığı ilə beynəlxalq siyasətə növbəti töhfələr verir. Forum ilə Azərbaycan Prezidenti İlham Əliyevin açılış mərasimindəki dolğun çıxışı da yaddaqalan olub. Dövlət başçısı postmünaqişə dövrü ilə bağlı regionda baş verən reallıqlardan söz açıb. Ermənistanın və onun dəstəkçilərinin yeni reallıqla bağlı təxribatçı addımlarının tam əsassızlığını bəyan edən Prezident Azərbaycanın qarşı tərəfdən fərqli olaraq, bundan sonra da real sülh şərtlərinə uyğun addımlar atmağa hazır olduğunu vurğulayıb. Prezident münaqişənin artıq həll olunduğunu bildirib və bununla bağlı gələcək siyasətin detallarına da toxunub. Ölkə başçısı 28 il müddətində ATƏT-in münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində fəaliyyətsizliyi barədə geniş məlumat verib və bildirib ki, Azərbaycan müharibə qanunlarına əməl etməklə Qarabağ münaqişəsini həll etdikdən sonra Minsk qrupunun fəaliyyətinə artıq ehtiyac yoxdur. Ölkə Prezidentinin qeyd etdiyi kimi, Ermənistana təklif edilən sülh təklifləri bölgədə sülhün təmin olunmasına mühüm töhfələr verəcəkdir. Qürur hissi ilə deyə bilərik ki, cənab İlham Əliyevin uzaqgörənliyi, uğurlu daxili və xarici siyasət xətti Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun gündən-günə artmasına böyük zəmin yaratmışdı.

Ümumiyyətlə, Qlobal Bakı forumlarında bir sıra ölkələrin fəaliyyətdə olan rəhbərləri, çoxsaylı dövlətlərin keçmiş rəhbərləri, tanınmış ictimai-siyasi xadimlər, aparıcı ekspertlər, habelə, Ümumdünya Səhiyyə Təşkilatının, Ərəb Dövlətləri Liqasının rəhbərləri iştirak edirlər. Eyni zamanda, dövlət başçıları Foruma müraciət ünvanlayırlar. Ötən ilin noyabrında "Gülüstan" sarayında keçirilən görüşü xatırladan ölkə başçısı "dünyanın dəyişməsi aydındır. Dəyişiklik fundamentaldır. Hələ ki, proqnozlaşdırılması mümkün olmayan fəsadlarla müşayiət olunur, lakin dünyanın fərqli olacağı aydındır və o, artıq fərqlidir. Buna görə də müzakirələr, fikir mübadilələri, bəzən fərqli fikirlərin ziddiyyətləri yeni yanaşmaların işlənib hazırlanması üçün lazım olanlar da bunlardır. Əlbəttə ki, hər bir ölkə bu prosesə, ilk növbədə, təhlükəsizlik tədbirləri ilə bağlı töhfə verməlidir. Çünki təhlükəsizlik məsələləri beynəlxalq arenada, beynəlxalq gündəlikdə duran əsas məsələlərdən birinə çevrilib. Eyni zamanda, mən əminəm ki, Avropadakı cari vəziyyət barədə açıq müzakirələrin aparılması tələb olunur. Qlobal Bakı Forumu bunun üçün mükəmməl platforma olaraq çıxış edir. Bu Forum müxtəlif tərəflərin fikirlərini toplayan inklüziv bir Forumdur və hesab edirəm ki, bu, belə də olmalıdır. Çünki biz hamımız dünyanı daha da təhlükəsiz etmək üçün bir-birimizlə daha yaxından çalışmalıyıq" deyə vurğulayıb.

Prezident İlham Əliyevin çıxışında toxunduğu mühüm və vacib məsələlər xüsusilə diqqət çəkir. Bu gün dünya siyasətində Azərbaycanın özünəməxsus yeri var. Qarabağ zəfəri Azərbaycanın dünyada mövqeyini daha da gücləndirib. İnanırıq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün strateji hədəflərə nail olacaq. Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonra təkcə Ermənistanla deyil, onun dəstəkçiləri ilə də apardığı siyasi və diplomatik mübarizədə bu cür mötəbər forumların və müsbət beynəlxalq əks-səda yaradacaq tədbirlərin keçirilməsi və onlara evsahibliyi edilməsi çox vacibdir. Hazırda zamanın və şərtlərin lehimizə işlədiyi postmünaqişə dönəmində tarixi qələbəmizi tam rəsmiləşdirmək və regionla bağlı ortaya qoyduğumuz yeni reallığın şərtlərini bütün dünyaya qəbul etdirmək üçün belə mötəbər tribunaların rolu əvəzolunmazdır. Bu cür önəmli beynəlxalq tədbirlərin və oradakı çıxışların fonunda Azərbaycana qarşı qara piar kampaniyası tamamilə mənasız görünür.

Hazırda işğaldan azad olunmuş şəhər və kəndlərin bərpası və yenidən qurulması işləri də sürətlə davam edir. Otuz il düşmən işğalı altında qalmış Qarabağ və ətraf rayonlarımız yeni görkəm alaraq daha da gözəlləşir. Erməni vandallarının izləri yavaş-yavaş silinərək, düşmənin işğal dövründə xarabalığa çevirdiyi şəhərləri, kəndləri, qəsəbələri cənnətə çevrilir. Çünki Qarabağın bərpası təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün xüsusi əhəmiyyət daşıyır.

Qlobal forumun iştirakçıları Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər etmişlər. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulması və inkişafına baxış, eləcə də ərazilərin minalardan təmizlənməsi ilə tanışlıq məqsədilə həyata keçirilən səfərdə qonaqları yerli və xarici media nümayəndələri müşayiət edib. IX Qlobal Bakı Forumunun iştirakçıları Şuşada panel müzakirələr aparıblar. Bu gün bütün dünya erməni vandallığının şahidi oldu.

Bu cür beynəlxalq tədbirlər Azərbaycanın öz mövqeyini dünyaya çatdırması üçün uğurlu bir platforma rolunu oynayır. Forumda hazırda dünyada mövcud olan ən aktual məsələlərin fəal müzakirə olunması, problemlərdən çıxış yollarının axtarılması, Albaniya, Bolqarıstan, Gürcüstan və digər ölkələrin fəaliyyətdə olan rəhbərlərinin, sabiq dövlət və hökumət başçılarının, ekspertlərin iştirakı tədbirə beynəlxalq aləmin xüsusi diqqətlə yanaşdığının bariz nümunəsidir. Qlobal Bakı Forumu adından da göründüyü kimi, bütün qlobal məsələlərin müzakirə edildiyi beynəlxalq tədbir kimi hər zaman dünyanın diqqət mərkəzində olur.

Forumun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bildirib ki, Qlobal Bakı Forumunda aparılan müzakirələr və fikir mübadilələri dünya gündəmində yer alan ən mühüm problemlərin araşdırılmasına və həllinə töhfə verəcək. Rusiya Diplomatlar Assosiasiyasının İdarə heyətinin sədri, Rusiya Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri İqor Xalevinskinin fikrincə, Qlobal Bakı Forumunun uğuru Azərbaycanın uğurlu xarici siyasətini təsdiq edir. O deyib ki, Forum həqiqətən də özünü ictimai-siyasi və dövlət xadimlərinin, beynəlxalq təşkilat rəhbərlərinin görüş yeri kimi təsdiq edib. Bu, Azərbaycanın dinamik, hərtərəfli düşünülmüş siyasətinin tanınması deməkdir.

Forum ilə bağlı keçirilən mətbuat konfransında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən IX Qlobal Bakı Forumunda aparılan müzakirələr nəticəsində qlobal gündəlikdə olan məsələlərlə bağlı faydalı təkliflərin irəli sürüləcəyinə inanır. Forumda 400-ə qədər nümayəndənin, o cümlədən dövlət və hökumət başçılarının, sabiq dövlət və hökumət başçılarının, gənc liderlərin iştirak etdiyini nəzərə çatdıran Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri pandemiya ilə ələqədar Forumun ənənəvi olaraq keçirildiyi vaxtda dəyişiklik edildiyini, növbəti Forumun gələn il martın ortalarında baş tutacağını söyləyib. Mətbuat konfransında çıxış edən Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliev Forumun təşkilinə görə Azərbaycan Prezidentinə və xalqına təşəkkür edib. Onun sözlərinə görə, Qlobal Bakı Forumu qlobal sülh, rifah üçün müzakirələr aparır. Eyni zamanda, qeyd edilib ki, belə təşəbbüslərin davamlı olması beynəlxalq münasibətlərin gələcəyi üçün xüsusi əhəmiyyətə malikdir.

**M.MUSTAFAYEV,**
**"Respublika".**